*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə:36-41* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.36*

# Repressiya həqiqətləri Azərbaycan bədii nəsrində (1960–1980-ci illər)

**Səbuhi Qəhrəmanov**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
gahramanovsabuhi@gmail.com
ORCID ID: https://orcid.org/0009-0008-9817-0409

**Annotasiya:** 1960–1980-ci illər Azərbaycan ədəbiyyatında azərbaycançılıq məfkurəsinin güclənməsi və inkişafı 1950-ci illər "mülayimləşmə dövrü"ndən başlayır. Bu istiqamətdə mühüm addımlardan biri də ədəbiyyatda repressiya mövzusunun təcəssüm tapmasıdır. Repressiya həqiqətləri poeziyada olduğu kimi, bədii nəsrdə də 1960–1980-ci illər ədəbiyyatının əks etdirdiyi, izlədiyi motivlərdən biridir. Məqalədə 1960–1980-ci illər Azərbaycan bədii nəsrində – roman, povest və hekayələrdə repressiya mövzusunun inikası araşdırılır, ideoloji senzura şəraitində müxtəlif bədii vasitələrin tətbiqi üsulları nəzərdən keçirilir. Mehdi Hüseyn, Süleyman Vəliyev, Bayram Bayramov, Anar, Yusif Səmədoğlu və Elçinin yaradıcılığı əsasında repressiya həqiqətlərinin yaratdığı xof, qorxu mühiti, mənəvi-psixoloji travmalar üzə çıxarılır, təhlil olunur. Tədqiqat göstərir ki, sərt senzura şəraitində yazıb-yaratmaqlarına baxmayaraq, yazıçılar repressiya reallıqlarını əks etdirə bilmiş, milli yaddaşın oyanmasında bilavasitə rol oynamışlar.
**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, repressiya, bədii nəsr, senzura, 1960–1980-ci illər

**Məqalə tarixçəsi:** göndərilib – 16.11.2025; qəbul edilib – 19.12.2025

# Repression realities in Azerbaijani fiction prose (1960s–1980s)

**Sabuhi Gahramanov**

**Abstract:** The strengthening and development of the ideology of Azerbaijanism in Azerbaijani literature of the 1960s–1980s begins with the "period of thaw" of the 1950s. One of the important steps in this direction was the theme of repression being reflected in literature. As in poetry, the realities of repression became one of the key motifs reflected and explored in Azerbaijani fiction prose of the 1960s–1980s. The article examines the representation of the theme of repression in Azerbaijani fiction prose of the 1960s–1980s novels, novellas, and short stories and analyzes the methods of applying various literary devices under conditions of ideological censorship. Based on the works of Mehdi Huseyn, Suleyman Valiyev, Bayram Bayramov, Anar, Yusif Samadoghlu and Elchin, the atmosphere of fear and intimidation, as well as the moral and psychological traumas created by the truths of repression are revealed and analyzed. The study shows that despite writing and creating under strict censorship, writers were able to reflect the realities of repression and played a direct role in the awakening of national memory.
**Keywords:** Azerbaijani literature, repression, fiction prose, censorship, 1960s–1980s

**Article history:** received – 16.11.2025; accepted – 19.12.2025

## Giriş / *Introduction*

XX əsr Azərbaycan tarixinin faciəli dövrlərindən biri olan repressiya illərinin həqiqətləri uzun müddət senzuranın sərt təsiri altında olduğundan, bədii ədəbiyyatda təcəssümü kifayət qədər araşdırılmamış, bu mövzu ictimai yaddaşdan sıxışdırılmağa çalışılmışdır. Mülayimləşmə dövründə repressiya qurbanlarına bəraət verilsə də, mövzunun ədəbiyyatda inikası birbaşa deyil, əsasən, dolayı, psixoloji qatlar vasitəsilə ifadə olunmuş, insan talelərində açdığı sağalmaz yaralar bədii nəsrin əsas problematikasına çevrilmişdir.

Azərbaycanda 1930-cu illərin milli həqiqətlərinə dönüş 1950-ci illərdə, Stalinin ölümündən bilavasitə sonra başlamış, şəxsiyyətə pərəstiş və repressiya hadisələri üzə çıxdıqca ədəbiyyatda da əksini tapmışdır. Mehdi Hüseynin "Qara daşlar" (1957) və "Yeraltı çaylar dənizə axır" (1964-1965) romanları, Bayram Bayramovun "Sənsiz" (1963) povesti mövzuya diqqət çəkir, yaxın keçmişə yenidən nəzər salmağa vadar edirdi. Ədəbiyyatda sosialist realizminin nəzəriyyəçilərindən olan və bolşevik inqilabının ("Daşqın", "Tərlan", "Səhər"), sosializm quruculuğunun ("Abşeron") romanlarında təcəssümünü verən Mehdi Hüseyn həmin dövrə yenidən baxır, törədilmiş cinayətləri, dəhşətləri qələmə alırdı. Yazıçının əsərlərinin təhlili göstərir ki, "...stalinizm dövrünün quruculuq pafosu "Abşeron", həmin dövrə yenidən tənqid və islahedici baxış isə "Qara daşlar" romanlarında; repressiya həqiqətləri "Yeraltı çaylar dənizə axır" əsərində panoram təsvirini tapır" [2, s. 696].

Bu baxımdan məqalənin məqsədi 1960–1980-ci illər Azərbaycan bədii nəsrində repressiya həqiqətlərinin ideoloji senzura şəraitində hansı bədii ifadə vasitələri ilə təqdim edildiyini araşdırmaq, repressiyanın ayrı-ayrı insanların həyatında, ümumən toplumda yaratdığı mənəvi-psixoloji travmaları milli yaddaş kontekstində dövrün əsas nəsr nümunələri əsasında təhlil etməkdir.

## Əsas hissə / *Main part*

"Yeraltı çaylar dənizə axır" romanında [7] yazıçı bir azərbaycanlı ailənin taleyi fonunda repressiyalar dövrünün aydın mənzərəsini yaradır, millətə, xalqa, insanlara vurduğu ağır zədələri göstərə bilir. Hadisələrin müharibə dönəmindən başlaması dövrün "tünd boyaları"nı daha yaxından hiss etməyə imkan verir. İnşaat mühəndisi Səmirə Aydının gündəlikləri əsasında qələmə alınan hadisələrin arxasında həqiqətlər, sənədli faktlar dursa da, müəllif ümumiləşdirilmiş obrazlarla danışır. Müharibədə əsir düşmüş Midhətin vətən xaini kimi sürgünə göndərilməsi ilə ailəsinin faciəsi başlayır. Ərinin "vətən xaini" ittihamı ilə həbsinə heç cür inanmasa da Səmirə Aydın dövrün qaydası ilə bu "ləkə"ni daşımamaq üçün rəsmən müdiriyyətə və partiya təşkilatına xəbər verir. Gözlənildiyi kimi, işdən azad olunur, iki məktəbli qızı və qaynanası ilə həyatın və zamanın sərt üzü ilə qarşılaşır. Romanda rejimin yalançı ittihamlarına tuş gələn yalnız Səmirə Aydın deyil; yazıçı bunun mexanizmini açmağa çalışır. Dost yaman gündə tanınır, repressiya olunanların ailəsinə kömək edənlər də həbsə, cəzaya məhkum olunurlar.

Beləliklə, romanda, yaxşılıq və yamanlıq, xeyir və şər, doğru və yalan üz-üzə gəlir. Yazıçı xalqın rejimin basqısından yalnız birgə, bir-birini qoruyub-dəstəkləməklə, minillərdən bəri yaşayan insanlıq, bir-birinə əl tutmaq, yıxılana dayaq olmaq adət-ənənələri ilə qurtulduğunu göstərməyə çalışır: *"Biz həm maraqlı, həm də tragik bir dövrün insanlarıyıq. Biz xəstələnən zaman taleyin zərbələrinə dözmək üçün hazır deyildik! Bu isə bizim şəxsi faciəmiz olmaqdan daha çox mənsub olduğumuz nəslin faciəsi idi. Bizi zərbələrin ağırlığı yox, ədalətsizliyi yıxmışdı..."* [7, s. 180-181] Romanda Səmirəni əhatə edən bir sıra insanlar – qaynanası Bədirnisə, iş yoldaşı Rima, məktəb yoldaşı Zəfər və qadını Tövsiyə, onu sevən, sevgisi uğrunda çarpışan Kamran, Orta Asiyada sürgündəki günahsız insanlar: müğənni Ceyran xanım və əri Elman, Sədi Kamal, Rəcəb dayı, Mollayi Kəbir, şişman qadın və digər epizodik obrazlar rejimə qarşı pozitiv toplumun, xalqın obrazını təqdim edirlər.

Bütünlükdə qara siması, hakimiyyət ehtirası, insanların həyatına uzanan cinayətkar əli ilə rejimi isə prototipi Mir Cəfər Bağırov olan Mollayev obrazı təmsil edir. Sadələşdirilmiş sxem olsa da, bu obraz hər yerdə gözəgörünməz iştirakı, hakim mövqeyi, sorğu-sualsız baş kəsməyi ilə rejimin iç üzünü, cinayətkar əməllərini tamlıqda əks etdirə bilir. Məhz əxlaqlı olduğu, Mollayevin şəhvətinə boyun əymədiyi üçün əxlaqsızlıqda suçlanıb sürgünə göndərilən müğənninin acı taleyi o dövrü xarakterizə edən əhvalatlardan yalnız biridir. Romanın sonunda Mollayev üzərində qurulan məhkəmədə cəlladı ittiham edən də məhz Ceyran xanım olur: *"Bəli, möhtərəm hakimlər, bu zülmət fədailəri öz nadanlıqlarının qisasını Azərbaycan ziyalılarının qaymağı sayılan insanlardan almışlar. Mən sənət adamıyam, müğənniyəm. Ona görə də istər-istəməz hamıdan artıq gözəl nəğmələrin, gözəl dram əsərlərinin müəllifi Hüseyn Cavidin ölümünə yanıram. "Mənim tanrım gözəllikdir, sevgidir" yazan bir insana yalnız cəlladlar əl qaldıra bilərdi. Mən şəxsən tanıdığım, təpədən dırnağa kimi səmimiyyət mücəssəməsi olan Mikayıl Müşfiqin ölümünə yanıram!.."* [7, s. 312-313]

Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır" romanı Azərbaycan cəmiyyəti və xalqının qara qüvvələrdən təmizlənib ağır repressiya illərindən sağlam ruh və düşüncə ilə çıxmasının geniş mənzərəsini yaradan ilk irihəcmli əsər idi.

Repressiya mövzusu 1960-cı illər ədəbiyyatında davam etmiş, Süleyman Vəliyev "Düyünlər" (1965) romanında [12] sürgündən qayıdan qəhrəmanının nəzərləri ilə dəyişən cəmiyyətdə insanların soyuqluğu, bir-birinə biganəliyi, yadlaşması, bütövlükdə rejimin repressiya həqiqətlərini unutdurmağa çalışması motivlərinə yer vermişdir. Romanın qəhrəmanı Vasif mərdlik, düzlük, insanlara inam keyfiyyətləri ilə əsl azərbaycanlıdır; bu məziyyətlər onu, başı nə qədər bəlalar çəksə də, sınmağa qoymur, milli xarakteri ilə ətrafına qalib gəlməyi bacarır. Bir zamanlar "altmış dərəcə şaxta"da "tayqada ağac qırıb ağcaqanadlarla əlbəyaxa olan" Vasif o qara günlərin üstündən xətt çəkib: *"İndi mən xeyirxah, yaxşılıq etməkdən zövq alan adamları yada salmaq istəyirəm..."* [12, s. 284] – deyə, həyatın nikbin fəlsəfəsinə köklənir.

Bununla belə, mülayimləşmə dövrü ədəbiyyatda və sənətdə çox davam etmir. Süleyman Vəliyev 1972-ci ildə əsərin ssenarisini "Azərbaycanfilm" kinostudiyasına təqdim edərkən açıq şəkildə rədd cavabı alır: *"Sizin qəhrəmanınız uzun müddət dustaq olub, sonra doğma vətəninə qayıdır, iqtisadi və mənəvi əzablara qələbə çalır və nəhayət, öz qüvvəsi, inamı, cəmiyyətimizdə ədalətin zəfər çalması nəticəsində məqsədinə nail olur. Romanınızın bütün süjet xətti bu məsələ ilə sıx bağlı olduğundan bugünkü ekran üçün yaramır"* [11, s.112].

S.Vəliyev otuz illik yaradıcılıq axtarışlarının məhsulu olan "Daşlı bulaq" romanında da repressiya gerçəkliklərinə müraciət etmiş, totalitar rejimin insan talelərində yaratdığı dərin mənəvi sarsıntıları inandırıcı şəkildə bədiiləşdirmişdir. Yazıçı dövrün ideoloji məhdudiyyətləri səbəbindən Sibirin acılı-ağrılı həyat şəraitini bütün sərtliyi ilə təsvir edə bilməsə də, repressiya mühitinin doğurduğu psixoloji narahatlıqları qəhrəman Ayazın daxili dünyası, düşüncə və davranışları vasitəsilə əsərin ideya-estetik ruhuna hopdura bilmişdir. Rəhim Əliyevin də qeyd etdiyi kimi, *"yəqin ki, müəllif "Daşlı bulaq" və "Düyünlər" romanlarını bu gün qələmə alsaydı, burada həyat həqiqətlərinin, realizmin səviyyəsi daha sərt və cəsarətli olardı, qəhrəmanların taleyinin təhkiyədən kənarda qalan məqam və nöqtələri də bəlkə daha əsaslı və əhəmiyyətli yer tutardı"* [6, s.174]. Təsadüfi deyil ki, yazıçı sovet rejiminin süqutu ərəfəsində nəşr etdiyi "Qanadı sınmış quş da uçarmış" (1988) memuarında repressiya illərini daha açıq və sərt ifadə etmişdir.

Rejim, sonu xoşbəxtliklə bitsə belə, millətin yaşadığı həqiqətləri bilməyə əngəl olur. Lakin yazıçılar repressiya günlərinin dərin izlərini, acı nəticələrini dolayısı ilə çatdırmağa çalışırdılar. Bayram Bayramovun "Sənsiz" povestində atadan yetim qalan qəhrəmanın dili ilə uşaq və yeniyetmə çağlarında yaşadığı psixoloji travmalar həmin illərin acı xatirəsidir. Ananın ona hətta niyə atasının yoxluğunu deməməsi, adını belə gizlətməsi o dəhşətli illərin xofunu oxuculara da yaşadır. Saxta xəyanət nəticəsində tutulan ataya görə övladı zərər çəkməsin deyə, ananın boşanması, ailələrin dağılması dövrün ən böyük faciəsidir: *"Ələkbər, bu kağızı yazmaqda məqsədim səndən üzr istəmək, bağışlan-*

*mağımı xahiş etmək deyildir. Əgər sən böyük lütfkarlıq göstərib mənim günahımdan keçsən də, mən özümü heç zaman bağışlaya bilmərəm... Sən pis adla həbs edildin. Bu "ləkəni" uşağımın üstünə götürməmək üçün dərhal səndən talağımı üzdüm. Mən səni yaxşı tanıya-tanıya, xasiyyətinə, ürəyinə bələd ola-ola şübhəyə düşməyə, inamımı itirməyə, düşmən sözünü təsdiq etməyə haqqım yox idi, Ələkbər, mənim bağışlanmaz günahım budur..."* [3, s. 122]

Repressiyanın vurduğu sağalmaz yaralardan biri də repressə olunanlardan da çox ailələrinin çəkdiyi əzab və əziyyətlərdir. "Yeraltı çaylar dənizə axır" romanında Səmirə Aydından fərqli olaraq, "Sənsiz" povestində Hilal böhtanlara aldansa da, övladının tərbiyəsini təmin edə bilir. Qəhrəmanın mənən sağlam böyüməsini, atasızlıq sindromunu dəf etməsini ailə ritualları, ananın mərdliklə, böyük iradə gücünə atanı da əvəz etməsi təmin edir. Burada "Sənsiz" müəllifi bəstəkarın da mənəvi dəstəyi rolunu oynayır. Əsərin sənədli olduğu bilavasitə göstərilməsə də, bəstəkarın prototipinin dahi Üzeyir Hacıbəyli olduğu özlüyündə bəlli olur. Əsərdə yazıçı həm də Ü.Hacıbəylinin böyük repressiya illərində nə qədər istedadlı uşaqlara, gənclərə yol açdığını, millətin gələcəyi naminə istedadları kəşf etdiyini ümumiləşdirmişdir.

Anar ilk hekayələrindən olan "O gecənin səhəri" əsərində (1964) 1937-ci ilin insanı vahiməyə salan vəhşətləri, qorxu, təqib, stress mühitini başqa bir tərzdə, psixoloji incəliklə əks etdirir. Gecənin bir vaxtı dördmərtəbəli bir evin sakinləri həyətdə maşının dayanmasından vahiməyə düşüb, addım səslərini qorxu ilə izləyirlər. Hər mənzilin sakinləri son günlərdə hərəkətlərini yada salır, səhv edib-etmədiyi barədə düşünür, yalnız addım səsləri uzaqlaşandan sonra rahat nəfəs alırlar. Bu ictimai psixozu yaradan 1937-ci ilin repressiya maşınıdır. Amma xoşbəxtlikdən bu dəfə qara maşın yox, gələn təcili yardım maşını olur və səhər qonşular diksinərək xoş xəbər eşidir, dünyaya yeni bir insan gəldiyindən xəbər tuturlar. Təhkiyəçi-qəhrəman hekayəsini mənalı bir sonluqla tamamlayır: *"Mən anketimdə doğum ilimi 1937-ci il yazıram. Böyüyəndə bildim ki, bu il xalq yaddaşında qorxu, nigaranlıq ili kimi qalıb. Bu il bir çox gözəl insanların həyatı qırılıb. Amma mənim üçün bu il ömrümün ən vacib ilidir. Günəşi, ağacları, dünyanı ilk dəfə gördüyüm il"* [1, s. 33]. Bu detalla Anar həyatın qara qorxular, ölüm kabusu üzərində qələbəsini simvollaşdırır.

Qorxu illərindən sonra həyat yeni məcrada davam etsə də, qeyd olunduğu kimi, sovet rejimi qeyri-rəsmi şəkildə repressiya mövzusunun ədəbiyyatda və sənətdə inikasına qadağalar qoymuş, yalnız sovetin son dönəmində 1930-cu illərin həqiqətləri bir daha bədii əsərlərdə inikas olunmağa başlanılmışdır.

Yusif Səmədoğlunun "Qətl günü" (1981–1984) romanında [10] cərəyan edən üç zamandan biri, məhz 1930-cu illərin repressiya dövrü ilə bağlıdır. Yazıçı fəlsəfi konsepsiyada qələmə aldığı romanda – orta çağlarda, stalinizm epoxasında və müasir dövrdə şər qüvvələrin xeyir üzərində total hökmranlığını bədii ifşa edir. Əslində, bu üç zaman qatı bir-birinin içindədir; orta çağlarda sənətkarın başına gətirilən zülm və edam səhnələri 1930-cu illər repressiyalarını yaşayan Sədi Əfəndinin romanındandır, məhz bu əsər diri olan şərin mahiyyətini üzə çıxarır. *"Tovariş Salaxov, budet sdelano"* [10, s. 40] – deyə, Zülfüqar kişinin günahsız Sarıca oğlu Məhəmmədi qətlə yetirməsinin səbəbkarı əmri verən Salahov da, dünən olduğu kimi yenə də diridir. Müəllif dövrün ağrılarını yaşayan romanın əsas qəhrəmanının xəstələnməsi, yatağa düşməsini də ümumən dövranın xəstə olması ilə bağlayır və bu həqiqətləri simvolikləşdirdiyi siçovul Kirlikirin dili ilə nağıl edir. *"Romanda mifik obrazlardan, bədii personajlardan əlavə bir sıra ümumiləşdirilmiş, simvollaşdırılmış obrazlar da mövcuddur. Xəstə, Hökmdar, Şair məhz bu cür obrazlardır"* [8, s. 37].

Tədqiqatçılar, eyni zamanda Sədi Əfəndi obrazında, repressiyaya uğramış böyük şairimiz Hüseyn Cavidin, bəzən də Səməd Vurğunun proobrazını görürlər. *"Doğrudur, normativ (və kanonik) ədəbi-ictimai təfəkkür bu romanın baş qəhrəmanı kimi dahi Hüseyn Cavidi gördü, ancaq Sədi əfəndi yalnız Cavid deyildi. Və bəlkə də, daha çox Səməd Vurğun idi..."* [4, s. 77-78] Repressiya həqiqətlərinin təsviri romanda ən çox bu obrazla bağlanır. Salahovun Sədi Əfəndini idarəyə çağırıb dindirməsi, romanına görə sorğu-suala çəkməsi, başqa dustaqlar haqqında ifadə almaq cəhdi qarşılığında onun özünü mərdanə aparması və s. faktlar Hüseyn Cavidin taleyini xatırladır. Xəstənin gözü ilə Sədi Əfəndi-

nin əbədiyyətə qovuşan portreti də bunu təsdiq edir: *"...nəhayət, Sədi Əfəndinin kartonu saralmış köhnə şəklini tapdı. ...Bu gülümsər və gözəl çöhrənin kiçicik bir anı neçə illərdir ki, dəyişməz qalır və hələ bundan sonra da, ta qiyamətə qədər, belə dəyişməz qalacaqdır: dünyanın dağları, okeanları dəyişməz qaldığı kimi, insan yaşadıqca məhəbbət və nifrət dəyişməz qaldığı kimi..."* [10, s. 137]

"Qətl günü" romanı tarixin qanlı səhifələrini hələ rejimin güclü olduğu vaxtlarda işıqlandırmaqla milli təfəkkürün silkələnməsinə rəvac verirdi. Bu, bir tərəfdən Ümummilli lider Heydər Əliyevin Hüseyn Cavidin xatirəsini əziz tutub, nəşini uzaq Sibirdən şairin vətəninə gətirməsi ilə bağlı idisə, digər tərəfdən yazıçının özünün cəsarətini göstərirdi: *""Qətl günü" ilk dəfə "Azərbaycan" jurnalının 1984-cü il 4-cü nömrəsində nəşr olunub. Bunun prinsipial mənası və əhəmiyyəti var. Onda hələ sovet cəmiyyəti stalinizm idarəetmə sisteminin buxovlarından azad olmamışdı, öz yerində sayan ideoloji maşın köhnə meyarlarla işləyirdi..."* [9, s. 46]

Elçinin sovet hakimiyyətinin son dönəmində qələmə aldığı "Ölüm hökmü" (1984–1988) romanında [5] repressiya maşını bütünlükdə rejimin mahiyyəti kimi təqdim olunur. Hadisələrin retrospektiv olaraq bütün sovet dövrü ərzində – 1920-ci illərdən başlayaraq davam etdiyi romanda tarixi faktlara və şəxslərə, eyni zamanda təxəyyül məhsulu olan ümumiləşmiş obrazlara söykənməklə, yazıçı yetmiş il bütövlükdə şər atmosferi altında yaşayan Azərbaycan cəmiyyətinin panoram mənzərəsini yaratmağa nail olur. Romanda 1929-cu ilin yazında Hadrutda baş vermiş taun epidemiyası, 1939-cu ilin qış günlərindən birində 1937–1938-ci ilin repressiya fırtınasının mexanizmini açan bir qonaqlığın təsviri və müasir dövrdə Tülkü Gəldi Qəbiristanlığında cərəyan edən hadisələr – simvolik seçilmiş bu kompozisiyanın fonunda tarixi həqiqətlərin bədii təcəssümü verilir. Stalinizm, repressiya maşınını həyata keçirən kommunist partiyası, ölüm qərarları, qurama məhkəmələr, yerlərdə bu proseslərin qəddar icraçıları, o cümlədən Mir Cəfər Bağırovun əzazil obrazı baş qəhrəman Xosrov müəllimin təlatümlər içində keçən həyat tarixçəsi üzərində romana gəlir.

Xosrov müəllim ailəsini, iki övladı və arvadını 1929-cu ilin taununda itirir. Təbii fəlakətdən təsadüf nəticəsində, Şuşaya səfər etdiyi üçün xilas olub sağ qalan Xosrov müəllim Bakı məktəblərinin birində rus dili müəllimi işləyir. Məktəb kollektivinin simasında oxucu, 1937-ci il hadisələrini canlı olaraq izləyə bilir. Məktəbin direktoru Ələsgər müəllimin qızının doğum günündə yersiz olaraq Stalinin, Bağırovun şərəfinə deyilən tostlara dözməyərək, Xosrov müəllim balaca qızın sağlığına içməyi təklif edir. Məclisdə iştirak edənlərin hamısı, bu hadisəni çuğullayanlar da, günahsız insanlar da repressiyaya, ölüm hökmünə, sürgünə, həbsə məruz qalırlar. Romanda paralel olaraq təsvir olunan Tülkü Gəldi Qəbiristanlığının rəisi Əbdül Qafarzadə millətə repressiya yaşadanların mənəvi varisidir; onun qazancını məhz ölülərdən çıxarması rəmzi səciyyə daşıyır. Sovet rejimi yaratdığı mənəvi repressiyalar mühiti ilə artıq ölülər cəmiyyətinə dönüşmüşdür.

Xosrov müəllim Əbdül Qafarzadə ilə evində kirayə yaşadığı Xədicə arvadın ölümü ilə bağlı üzləşir. Digər kirayənişin, tələbə Murad İldırımlı ilə birgə qəbir yeri xahişinə gələrkən, rüşvət mexanizminin daş üzü ilə rastlaşırlar. Həyatın astanasında əlacsızlıqdan ağlayan tələbə Xosrov müəllimin simasında daha böyük acizlik mücəssəməsini görür: *"Xosrov müəllimin gözlərində elə bir ağrı gördü ki, içini bürümüş xəcalət hissi yox olub getdi. Tələbə – müşahidə qabiliyyəti olan bu cavan – indiyə kimi heç vaxt heç kimdə Xosrov müəllimin gözlərindəki qədər bir ağrı görməmişdi"* [5, s. 95]. Xosrov müəllimin simasında bütünlükdə rejimin bəlalarını yaşayıb, məşəqqətlərini çəkmiş Azərbaycan insanını görürük. İsa İsmayılzadənin yazdığı kimi: *"Romanın səhifələrindən repressiya "sahilinin" ağır, boğucu kəsafət və vahimə hopmuş öldürücü havası kabus kimi iliyimizə, qanımıza hopduqca, haqsızca boğulanların, ağlını itirənlərin, ölənlərin, ya dışarıdan, ya içəridən məhv olanların da yerinə haray salmaq, qışqırmaq, haqqı, ədaləti köməyə çağırmaq, Tarixi div yuxusundan silkələyib oyatmaq istəyirsən... "Ölüm hökmü" belə bir dövrün ruhundan-havasından yaranmış, fantasmaqorik bir sarkazmla dolu güclü bədii ittihamdır"* [5, s. 8].

Sovet dövrünün qürubunda yaranmış "Ölüm hökmü" romanı Azərbaycan üzərində repressiyalar rejiminin başa çatdığını xəbər verir, simvolizə edirdi.

## Nəticə / *Conclusion*

1960–1980-ci illər Azərbaycan bədii nəsrində repressiya həqiqətlərinin əks olunması ideoloji senzura şəraitində formalaşmış mürəkkəb bədii proses kimi səciyyələnir. Araşdırma göstərir ki, M.Hüseyn, S.Vəliyev, B.Bayramov, Anar, Y.Səmədoğlu, Elçin və başqa yazıçılar əsərlərində repressiya mövzusunu birbaşa ittihamlarla deyil, fərdi və ictimai talelərdə açdığı yaralar, yaratdığı mənəvi sarsıntılar vasitəsilə təqdim ediblər. Bu bədii yanaşma milli yaddaşın, tarixi həqiqətlərin qorunmasına, Azərbaycan ədəbiyyatında milli kimlik şüurunun, azərbaycançılıq məfkurəsinin möhkəmlənməsinə mühüm töhfə vermişdir.

## Ədəbiyyat / *References*


1. Anar. Yağış kəsdi. – Bakı: Gənclik, – 1968. – 116 s.
2. Azərbaycan ədəbiyyatı tarixi: [10 cilddə]. – Bakı: Elm, – c. 7, I hissə. – 2024. – 1160 s.
3. Bayramov, B.S. Üç gün, üç gecə. – Bakı: Gənclik, – 1967. – 472 s.
4. Cəfərov, N.Q. Səməd Vurğun... və Səmədoğlular. – Bakı: Elm və təhsil, – 2015. 108 s.
5. Elçin. Ölüm hökmü. – Bakı: Yazıçı, – 1989. – 368 s.
6. Əliyev, R.N. Taleyin yazıları. Ədəbiyyatımız, tariximiz, dilimiz: son iki onilimiz (70–80-ci illərin ədəbi-ictimai prosesi). – Bakı: Elm, – 1997. – 308 s.
7. Hüseyn, M., Seçilmiş əsərləri: [3 cilddə] / M.Hüseyn. – Bakı: Avrasiya Press, – c. 1. – 2005. – 320 s.
8. Qaragözova, E.E. Yusif Səmədoğlunun həyatı və yaradıcılığı. – Bakı, Xan Nəşriyyatı, – 2024. – 132 s.
9. Osmanoğlu, M. Ocaq yeri: esselər, xatirələr, müsahibələr. – Bakı: Pergament Y.E., 2019. – 106 s.
10. Səmədoğlu, Y. Seçilmiş əsərləri/ Y.Səmədoğlu. – Bakı: Şərq-Qərb, – 2005. – 320 s.
11. Vəliyev, S.V. Qanadı sınmış quş da uçarmış. – Bakı: Gənclik, – 1989. – 432 s.
12. Vəliyev, S.V. Seçilmiş əsərləri: [2 cilddə] / S. Vəliyev. Bakı: Yazıçı, – c. 1. – 1983. – 518 s.


## Истина о репрессиях в азербайджанской художественной литературе (1960–1980-е годы)

**Сабухи Гахраманов**

**Резюме:** Усиление и развитие идеологии азербайджанства в азербайджанской литературе 1960–1980-х гг. начинается с “периода оттепели” 1950-х гг. Существенным шагом в данном направлении явилось воплощение тематики репрессий в литературе. Истина о репрессиях как один из основных мотивов нашла свое отражение как в поэзии, так и в художественной литературе 1960–1980-х гг.
В статье исследуются проявления темы репрессий в азербайджанской художественной литературе 1990–1980-х гг. – в романах, повестях и рассказах, а также рассматриваются различные художественные приемы, применяемые в условиях идеологической цензуры на основе творчества Мехти Гусейна, Сулеймана Велиева, Байрама Байрамова, Анара, Юсифа Самедоглы и Эльчина, анализируются и выявляются порожденные репрессией реалии атмосферы ужаса, состояния страха, полученных морально-психологических травм.
Исследование показывает, что несмотря на условия жесткой цензуры писатели в своем творчестве смогли отразить реальную сущность репрессии, что сыграло непосредственную роль в пробуждении национальной памяти.
**Ключевые слова:** азербайджанская литература, репрессия, художественная литература, цензура, 1960–1980-е годы